# "YEHOVA ŞAHİDLƏRİ" TƏŞKİLATINA İSLAMİ BAXIŞ



*Sahib Əsədov*

# "Yehova şahidləri" təşkilatına İslami baxış

Dəyərli oxucu, xristianlıq dininə nisbət olunan "Yehova Şahidləri" haqqında araşdırmamız aşağıda qeyd edilən aspektləri əhatə edəcəkdir:

1 – "Yehova Şahidləri" kimlərdir?
2 – "Yehova Şahidləri"nin tarixi haqqında.
3 – "Yehova şahidləri"nin inanc və fikirləri nələrdir?
4 – Yayılma arealı və missionerlik fəaliyyəti
5 – İslami cəhətdən yehovaçılığın tənqidi.

## "Yehova Şahidləri" kimlərdir?

"Yehova şahidləri" özlərini həqiqi xristianlar hesab etsələr də xristian aləmində radikal xristian təriqəti hesab edilirlər. Onlar xristianlığın protestant qoluna aiddirlər və gizli şəkildə təşkilatlanırlar[1]. Bəzi ensiklopediyalarda onlar belə vəsf edilirlər: "Yehova şahidləri" beynəlxalq dini və siyasi bir təşkilatdır, gizli orqanizasiya və aşkar fikir üzərində qurulmuşdur...xristian olduqlarını iddia edirlər. Reallıq isə budur ki, onlar yəhudiliyin təsiri altında yaranmış və onların xeyirləri üçün çalışırlar. Həmçinin bu təşkilat özünü "Yeni Dünya Cəmiyyəti" adıyla da adlandırır"[2].

"Yehova" sözü yəhudilərin dini kitabı olan Tövrat kitabında "Allah" mənasında işlədilən "yəhva", "yehova" sözündən götürülmüşdür. Onlar özlərini yer üzündə Allahın padşahlığını quracaq həqiqi şəxslər hesab edir və inanırlar ki, cənnət yer üzündə olacaqdır. Bir çox xristian firqələrindən fərqli olaraq onlar "təslis" (üçlük) inancına inanmır və yalnız bir Allahın olduğuna inanırlar. Bu təşkilat 19-cu əsrin ikinci yarısında Amerikada ortaya çıxmış və güclü missioner dəstəyi alır.

---

[1] Məqalə: Azərbaycanda "Yehova şahidləri" necə təşkilatlanır? birinci bənd: https://axar.az/news/gundem/36021.html

[2] "Muyəssəra" ensiklopediyası. (ərəbcə) ixtisarla. 2/648. Nədva-Aləmiyyə nəşriyyatı. 2014.

## Yehova şahidlərinin tarixi haqqında

Artıq qeyd olundu ki, "Yeqova Şahidləri" təşkilatı Amerikada yaranmışdır. 1872-ci ildə Çarlz Rassel adlı keşiş tərəfindən "Yehova Şahidləri" təşkilatı təsis edilmişdir. Həmin vaxtlarda bu təşkilatın üzvləri "Rasselçilər" olaraq tanınırdılar[3].

Yuxarıda qeyd olunan ildə amerikalı Çarlz Rassel (1852-1916) Pitsburq şəhərində (ABŞ, Pensilvaniya) "Beynəlxalq Müqəddəs Kitab tədqiqatçıları" adlı dərnək yaradır. Dərnəyin məqsədi bəşəriyyətin gələcəyinə dair Bibliyanın dediyini aşkarlamaq idi. Rassel İsa Məsihin cismən yer üzünə qayıdacağını gözləyən adventistləri tənqid atəşinə tutaraq belə bir iddia ortaya atırdı ki, guya 1874-cü ildə İsa Məsih gözəgörünməz şəkildə qayıtmışdır. O, "Tanrının zühur etməsinin məqsədi və qaydası" (1874) adlı ilk əsərində bu ideyanı inkişaf etdirərək bildirirdi ki, guya İsa Məsihin ikinci gəlişi 1914-cü ildə baş verməlidir. Lakin İsa Məsihin zühuruna dair xəbər puça çıxdıqda Rasselin tərəfdarları bildirirlər ki, 1914-cü ildə İsa Məsihin ikinci gəlişi gözəgörünməz şəkildə baş vermişdir"[4].

Rassel bu ərəfədə təşkilatı gücləndirmək üçün bir sıra fəaliyyətlər icra edir. O, jurnal buraxmağa cəhd edir, təşkilatı qeydiyyatdan keçirməyə nail olur və digər fərqli işlər görür.

Rasseldən sonra təşkilata Cozef Franklin Ruterford (1869-1942) rəhbərlik etmişdir. O, 1917-ci ildə "Babilin süqutu" adlı kitab yazmışdı. Bu kitabda süqut edən Babilin timsalında həmin vaxt dünyada olan bütün sistemlərin süqutuna eyham vurulurdu[5].

Ondan sonra isə Natan Norr (1906-1977) təşkilata rəhbərlik etmişdi. Onun vaxtında isə deyilənə görə artıq bu təşkilat dövlət

---

[3] Öncəki mənbə. 2/646.

[4] Azərbaycanda xristianlıq keçmişdən bu günə. Anar Əlizadə. Səh. 315.

[5] "Muyəssəra" ensiklopediyası. (ərəbcə) ixtisarla. 2/646. Nədva-Aləmiyyə nəşriyyatı. 2014.

içində bir dövlətə çevrilmişdi[6]. O, 1942-1977-ci illər arasında bu təşkilata rəhbərlik etmiş, yehovaçıların təhsil şəbəkəsini formalaşdırmış, əsas missioner ocağını – Müqəddəs Kitab Gilead məktəbini təsis etmişdi[7].

Norrun vəfatından sonra aşağıdakı şəxslər "Gözətçi qülləsi, Müqəddəs Kitab və Traktlar Cəmiyyəti"nin prezidenti, dolayısı ilə "Yehovanın Şahidləri"nin başçıları olmuşlar:

1 – Frederik Uilyam Frens. 1977-1992-ci illərdə ömrünün sonuna kimi rəhbərlik edib.

2 – Milton Corc Henşel. 1992-ci ildə "Yehovanın Şahidləri"nin başçısı olub. Həmin vəzifəni 1999-cu ilə kimi icra edib və öz istəyi ilə istefa verib. Bu dini təşkilatın tarixində ilk belə hadisədir. Çünki Henşeldən əvvəlki rəhbərlər ömürlük cəmiyyətin prezidenti vəzifəsini yerinə yetiriblər.

3 – 1999-cu ildən Don Adams[8].

Təbliğat quruluşunun tarixi əhəmiyyətli tarixləri isə bu illəri hesab etmək olar:

- 1870 - Müqəddəs Yazıların öyrənilməsi üçün "Müqəddəs Kitab Çərçivəsi" adlı cəmiyyətin yaradılması؛
- 1884 - "Sion Qüdsü Cəmiyyəti" dini təşkilatının rəsmi qeydiyyatı؛
- 1931 - təşkilatın iki ayrı cəmiyyətə bölünməsi: "Yehovanın Şahidləri" və "Müqəddəs Araşdırmalar"[9].

Azərbaycanda bu təşkilatın ilk (on nəfərlik) kiçik icması isə 1983-cü ildə meydana gəlmişdir[10]. Sonradan isə sayları müstəqillik

---

[6] Öncəki mənbə. 2/646.

[7] Azərbaycanda xristianlıq keçmişdən bu günə. Anar Əlizadə. səh. 317.

[8] Öncəki mənbə. səh. 317.

[9] Məqalə: Yehovanın Şahidləri - kimlərdir və nə üçün qadağan edildi? https://hurriyyet.az/az/post/yehovanin-sahidleri---kimlerdir-ve-ne-ucun-qadagan-edildi-349457

[10] Azərbaycanda xristianlıq keçmişdən bu günə. Anar Əlizadə. Səh. 317.

dönəmində artmağa başlamışdır. İlk dəfə dövlət qeydiyyatından keçmək üçün 1997-ci ildə müraciət etmiş, 1999-cu ildə Ədliyyə nazilrliyində qeydiyyatdan keçmişdilər. (hüquqi ünvan: Bakı şəhəri. T. Abbasov küçəsi. ev. 9. Mən. 91). Azərbaycanda Dini Qurumlarla İş Üzrə Dövlət Komissiyası təsis edildikdən sonra "Yehova Şahidləri" təşkilatı 2002-ci ildə dövlət qeydiyyatından keçmişdir[11]. (hüquqi ünvan: Bakı şəhəri. Sabunçu rayonu. Seyid Hüseyn küçəsi. ev. 23. Mən. 10). Müxtəlif dövrlərdə təşkilatın fəaliyyətində qanunsuzluqlar aşkar edildiyi üçün növbəti dövrdə təşkilat bir müddət qeydiyyata alınmamışdır.

## "Yehova Şahidləri"nin inanc və fikirləri nələrdir?

- Onlar ilah olaraq yehovaya, onun məmləkətindəki hökmdarlığın isə İsaya məxsus olduğuna inanırlar.
- Onlar xristianlara aid "Müqəddəs Kitab"a inansalar da, bu kitabı öz xeyirləri üçün yozurlar. Həmçinin öz rəsmi saytlarında iddia edirlər ki, Tövratı, Zəburu və 66 bölmədən ibarət olan incilin bütün bölmələrini qəbul edirlər.
- "Yehova Şahidləri" üzvləri "təşkilat (sekta) başçılarına" kor-koranə tabeçilik edirlər.
- Dünya hakimiyyətini ələ keçirmək üçün Məsih İsanın və "Müqəddəs Kitab"ın adından istifadə edirlər.
- İnsanları böyük yəhudi dövlətinin qurulması üçün psixoloji olaraq hazırlayırlar.
- Cənnətin bu dünyada olacağına inanırlar[12]. Bəzi mənbələrdə cəhənnəmi və hesaba çəkilməni mütləq şəkildə inkar etmələri haqqında bilgilər olsa da görünən budur ki, onların bu mövzudakı

[11] Öncəki mənbə. səh. 318.

[12] "Muyəssəra" ensiklopediyası. 2/648-49. Əlavə olaraq bax: Zəburda insanların davamlı yaşayış yeri olaraq bildirilən ifadələri onlar "cənnətin Yer üzündə əbədi olacağı" kimi başa düşüblər. (Zəbur, 104; 5; 115:16). Həmçinin bax: (Zəbur, 37:11, 34).

fikirləri səmavi dinlərdən fərqlənir, hətta xristianlıqdakı əzab və cəhənnəm inancına belə ziddir[13]. Bu baxımdan onların cəhənnəmi inkar etmələrini demək doğru hesab olunur. Çünki rəsmi saytlarından birində 15 əsas inancları arasında belə yazılmışdı:

"9. İnsan öləndə mövcudluğuna son qoyur (Zəbur 146: 4; Vaiz 9:5, 10). Allah milyardlarla insanı dirildəcək (Həvarilərin işləri, 24:15). Həyata qayıdandan sonra Allahı qəbul etməyən insanlar əbədilik məhv olacaq. Onların artıq dirilməyə heç bir ümidləri olmayacaq. (Vəhy, 20:14, 15)".

- Onlar inanırlar ki, azadlıq müharibəsi baş verdiyi zaman bu müharibəyə rəhbərliyi İsa edəcəkdir. Yehova şahidləri isə onun ordusunda olacaq və yer üzündəki siyasi liderləri aradan qaldıracaqlar.

- Onlar "Müqəddəs Kitab"dan İsraili və yəhudiləri sevdirən hissələri seçir və yayırlar.

- Ruha inanmır və ruhun əbədi olaraq qaldığına da inanmırlar. "Rəbbin evi" və ya "Hökmranlıq zalı" adlı xüsusi ibadət yerləri var.

- İnsanlıq qardaşlığı məfhumu digər bəşər övladlarına deyil, təşkilatın üzvlərinə məxsusdur.

- Onlar xalqları öz hökumətlərinə qarşı çıxmağa, itaətdən boyun qaçırmağa və ölkələrindəki bütün rəsmi fəaliyyətləri tərk etməyə təhrik etməklə xaosa səbəb olurlar. Bunu isə yaşıl kitablarında varid olan bu fikirlərə əsasən edirlər: "Qoy onlar Allahın Müqəddəs hakimiyyətində Allahın səfirləri olmaqda sadiq olsunlar". Onlar özlərini ideoloji əsaslarının nə olmasından aslı olmayaraq müasir hökumətlərin mükəlləfiyyətlərindən qoruyacaq yollara baş vururlar[14]. (Hərbi xidmətə getmək də bu əsasla onlara

---

[13] Yehovaçılar cəhənnəmi mütləq şəkildə inkar etmirlər, sadəcə görünən budur ki, əzabın və hesaba çəkilmənin səmavi dinlərdə olan formasını inkar edirlər. Onlar cəhənnəmə gedən adamın dirilmədiyini deyir və ölən adamın istirab çəkmədiyini, öldüyü andan dirildilənə qədər yuxuda olduğunu deyirlər. Həmçinin deyirlər ki, ölən adam ölümə (dirilməməyə) məhbus olubsa, onda o şəxs sonsuza qədər yox olacaqdır.

[14] Öncəki mənbə. 2/649.

qadağandır).

- Bəzi mənbələrdə onların evlənməyə də qarşı olduqları bildirilir[15]. Lakin ola bilsin ki, təlimlərində olan evlilik məsələsi insanlara düzgün izah edilməyib. Əslində isə onlar boşanmaya yeganə səbəbin zina ola biləcəyini qəbul edirlər[16].

- Digər xristianlardan əsas fərqlərindən biri isə xaça inanmamaları, xaçı bütpərəstlik simvolu hesab etmələridir[17].

- Həmçinin qeyd olunur ki, qanvermə aksiyaları və qanverməyə ümumən pis yanaşır və qanverməni rədd edirlər. Onlara görə qan yemək haram olduğu üçün bu qanvermə prossesi bu prinsipə müxalifdir və haramdır[18].

## Yayılma arealı və missionerlik fəaliyyəti

Yer üzündə elə bir dövlət yoxdur ki, orada bu təhlükəli təşkilatın üzvləri olmasın. Əsas mərkəzləri ABŞ-da, Nyuyorkun Broklin küçəsindədir. (U.S.A. New York. Brooklyn. 124 Columbia Heights). 1955-ci ildə 158 ölkədə fəaliyyət göstərirdilər[19].

Yehova şahidləri təşkilatı üzvlərinin azərbaycandakı saytlarının birində belə bir məlumat verilib: "Yehovanın Şahidlərinin fəaliyyət göstərdikləri ölkə və ərazilər: 239-dur"[20].

Təşkilatın özünün hesablamalarına görə, 2011-ci ildə bu dini təşkilatın üzvlərinin maksimal sayı 7 659 019 nəfərə çatmışdır.

---

15 Məqalə: Azərbaycanda "Yehova Şahidləri" necə təşkilatlanır? səkkizinci bənd: https://axar.az/news/gundem/36021.html

16 Azərbaycandakı saytlarından birində deyilir: "Ailə: Allahın gözündə ailə bir kişi ilə bir qadının birliyidir. Boşanmaya yeganə səbəb isə zinadır. (Mətta. 19:4-9). Əminik ki, ailənin xoşbəxtliyi Müqəddəs Kitab prinsiplərinə əməl etməkdən aslıdır. (Efeslilərə: 5:22-6:1). (mənbə: https://www.jw.org/az).

17 Türkiye Diyanet Vakfı -İslam Ansiklopedisi – Yehova Şahitleri.

18 İncil kitabı (Təkvîn, 9/4; Levililer, 17/11-12).

19 "Muyəssəra" ensiklopediyası. 2 cildlik (ərəbcə). 2/651.

20 "Yehova Şahidləri"nin Azərbaycandakı aktiv saytlarından biri. https://www.jw.org/az/.

2008-ci ildə "Yehovanın Şahidləri"nin ümumi sayı dünyada 7 milyon nəfəri keçib. Bütün dünyada 100 min mərkəzləri mövcuddur. (Bəzi mənbələr isə qeyd edir ki, onlar) 236 ölkə və ərazilərdə təbliğ işi aparırlar. Bu ölkələrə "Yehova Şahidləri"nin qadağan olunduğu 30 ölkə də daxildir. Məsələn, bunların arasında Çin, Şimali Koreya, Özbəkistan, Türkmənistan, Tacikistan, Səudiyyə Ərəbistanı, İran, İraq və s. kimi ölkələrin adlarını çəkmək olar[21].

**Bəzi şüar və rəmzləri isə bunlardır:**

- Yəhudilərin milli və dini rəmzi olan "yeddiguşəli şamdan"dan istifadə edirlər.
- Həmçinin yəhudilərə aid "altıguşəli ulduz"dan istifadə edirlər.
- Yəhudilərin Allahı "yəhova" adlandırdığı kimi, onlar da bu kəlməni əsas olaraq istifadə edirlər[22].

**Təşkilatın bəzi kitablarının adları bunlardır:**

- Bu (ümid etdikləri) ölkə haqqında yaxşı xəbərdir.
- Yeni dünyada imanın təməli.
- Artıq xalqların müalicəsi yaxınlaşmışdır.
- Yeni, ədalətli sistem ümidilə yaşamaq[23].
- Yehova şahidlərinə aid yalnız bir saytda pdf formatında 120-yə yaxın kitab və broşurün olduğunun, kifayət qədər təbliğat bilgilərinin olmasının şahidi oldum[24].
- Yehova şahidlərinin təbliğatında xüsusi evlərin və qapalı yerlərin təşkili, qadın və qızlardan geniş istifadə edilməsi, broşür və kitabların pulsuz şəkildə paylanılması, bu işin

---

21 Məqalə: Sumqayıtda Yehova Şahidləri təhlükəsi? – ARAŞDIRMA https://sumqayitxeber.com/sumqayitda-yehova-sahidleri-tehlukesi-arasdirma/

22 "Muyəssəra" ensiklopediyası. 2/650.

23 Öncəki mənbə. 2/650.

24 Bax: 3 – Yehova şahidlərinin Azərbaycandakı aktiv saytlarından biri. (https://www.jw.org/az/).

bölgələr üzrə planlı şəkildə edilib təyin edilmiş binalarda yerləşən bütün mənzillərə kitabların paylanılması, ehtiyac duyulduqda fərdi söhbətlərin təşkil edilməsi müşahidə edilir. "Onların tez-tez Gürcüstana yığıncaqlara dəvət olunması üzvlərə verilən tapşırılar və hesabatlarla bağlıdır"[25]. "Qeyd edək ki, ölkəmizdəki yehovaçı özəklərin fəaliyyətinə Tiflis şəhərində yaşayan amerikalı və avropalı missioneerlər istiqamət verir. Yerli yehovaçıların kordinatorları Tiflis şəhərində yaşayırlar"[26].

- Azərbaycanda digər xristian mənsublarından daha aktiv şəkildə təşkilatlanan yehovaçılar zaman-zaman müxtəlif təziq və həbslərlə üzləşsələr də öz təbliğatlarını davam etməkdən usanmırlar. Təbliğat vasitəsi kimi gənc qız və qadınlardan istifadə edilməsi də məqsədyönlü olub bəzi gəncləri özlərinə tərəf cəlb etməyi asanlaşdıran təhlükəli bir vasitədir.
- Təbii fəlakətlər zamanı yardım etmək vasitəsini də bir təbliğat vasitəsi kimi istifadə edirlər[27].
- 2000-ci ilədək ölkə əhalisinin 25 faizinin xristianlaşdırılması üzərində geniş iş aparılıb. Müxtəlif vaxtlarda bu planın icrasına bəzi ölkələrin xüsusi xidmət orqanları və siyasi dairələri cəlb edilib. Lakin Bakıda və bölgələrdə xristian sektalarının özəklər yaratmasına baxmayaraq, “Azərbaycanın xristianlaşdırılması planı” faktiki iflasa uğrayıb və 2003-cü ildən ölkədə xristian missionerliyin təbliğatı zəifləməyə başlayıb[28]. Buna baxmayaraq xristianların, ələxüsus da yehova şahidləri

[25] Məqalə: Azərbaycanda “Yehova şahidləri” necə təşkilatlanır? səkkizinci bənd: https://axar.az/news/gundem/36021.html

[26] Azərbaycanda xristianlıq keçmişdən bu günə. Anar Əlizadə. səh. 318.

[27] Həmin məsələdə istifadə olunan mənbə: (Həvarilərin işləri: 11:27-30).

[28] Azərbaycanda dini məsələ: təhdidlər və hədəflər. Gündüz İsmayılov. Səh. 223.

təşkilatının zaman-zaman aktivləşməsi halları müşahidə olunur.

- Tam zamanlı ve maaşlı olarak vəzifələndirilmiş bir qrup ayda 150 saatını missionerliyə ayırır və qrupun 260 dilə tərcümə edilen jurnallarını (The Watchtower ve Awake) paylamaqla məşğul olur. Hər ay edilən missionerlik fəaliyyətlərinin statistikası qeydə alınır[29].
- Bütün Protestant qrupların yerinə yetirdiyi iki âyini (vəftiz ve komünyon) Yehova şahidleri de yerinə yetirirlər[30].

## İslami cəhətdən yehovaçılığın tənqidi

Burada yazılan bilgilər təkcə sosial şəbəkələrədən, kitab və məqalələrdən toplanan bilgilər deyil. Araşdırmaçı bəzi "Yehova şahidləri" təşkilatının üzvləri ilə etdiyi söhbətlərə də əsaslanmağa çalışmış və araşdırmanı həmin səpkidə aparmışdır.

• İlk öncə onu qeyd edək ki, bu inanc təməl prinsip olaraq son din olan İslamın təməl inanc prinsiplərinə yüzlərlə məsələdə müxalifdir və haqq yoldan sapmışdır. Bu təriqət hətta xristianlığın böyük təriqətləri tərəfindən belə rədd edilir və radikal bir təriqət olaraq qəbul edilir. Yehovaçılıq xristianlığı yəhudi dininə bağlamağa çalışan, xristianlığı yəhudi millətçiliyinin maraqlarına uyğun bir hala gətirən bir cərəyan olub bəzi fərqli inancları ilə də bəşəri məqsədlər üçün ərsəyə gətirilmiş bir yol olmasını, siyasətdən kənar olduqlarını iddia etsələr də olduqları ölkələrdə xristianlıq, yəhudilik və ümumən qərb üçün ölkədaxili gərəkli zehniyyətlərin hazırlanmasında mühüm rol oynayırlar. Bu cür şəxslərdən casusluq və müxtəlif məqsədlərlə istifadə edilməsi halları da uzaq deyildir.

• Yehovaçılar qədim fəlsəfəçilərin, ələlxüsus da yunan

[29] Türkiye Diyanet Vakfı -İslam Ansiklopedisi – Yehova şahitleri.
[30] Bax: Öncəki mənbə.

fəlsəfəçilərinin fikirlərindən təsirlənmişlər. Onların böyük yəhudi təşkilatlarıyla əlaqələrinin olması da gizli bir hal deyil. Massonlarla da əlaqələri vardır. Həmçinin digər böyük xristian missioner təşkilatlarıyla da əlaqələri mövcuddur. "Muyəssəra" ensiklopediyasında belə bir cümlə də işlənir: *"Onların yunan və ermənilərin nüfuz sahibləri ilə möhkəm, sıx əlaqələri vardır"*[31].

• Dünyanın sonuna yaxın xristianların vasitəsilə baş tutacaq "Armagedon" müharibəsinin təbliğatçılarından biri də məhz yehovaçılardır[32]. Bir kəsim xristianlar inanırlar ki, bu xristianlar və müsəlmanlar arasında baş verəcəkdir. Onların ilk liderləri də bu böyük müharibə fikrini yayanlardan olmuşdular. Təriqət hələ də bu fikir üzərindədir ki, dünyanın sonuna yaxın böyük bir müharibə baş verəcək və guya bu savaşda "İsanın Krallığında" (1/14) vəhy kitabında deyildiyi kimi 144.000 mübarək mömin (xristian) yardım edəcəkdir[33]. Əslində İslam dinində belə bir müharibənin qeyri-müsəlmanalarla müsəlmanlar arasında olacağı haqda çoxlu hədislər var. Sadəcə görünən budur ki, bu gözlənilən böyük müharibənin əsas mahiyyəti də onların öz dinlərini təhrif etmələrindən dolayı təhrif edilmişidir.

• Onların İsa (əleyhissalam) peyğəmbər haqqındakı təsəvvürləri son dinə ziddir. Onlar xristianlıqda İsanın ilahiləşdirilməsinə qarşı olsalar da, İsanın xəbər verdiyi son peyğəmbəri (sallallahu aleyhi və səlləm) qəbul etmirlər. Uca Allah Qurani-Kərimdə buyurmuşdur: "Bir zaman Məryəm oğlu İsa demişdi: "Ey İsrail oğulları! Həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl nazil edilmiş Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı peyğəmbərlə sizi müjdələyən bir elçisiyəm!" Allahın elçisi onlara açıq-aydın dəlillər gətirdikdə onlar: "Bu, aşkar bir sehrdir!"– dedilər". (əs-Saff. 6).

---

31 "Müyəssəra" ensiklopediyası. 2/650.

32 Türkiye Diyanet Vakfı -İslam Ansiklopedisi – Yehova şahitleri: https://islamansiklopedisi.org.tr/yehova-sahitleri.

33 Bax: Öncəki mənbə.

• Artıq qeyd edildiyi kimi xristianlığın təhrif olunmasına baxmayaraq, xristianlığı yəhudilik ilə daha çox sintez halına salmağı hədəfləyən bir inanca sahib olan təşkilat bu baxımdan da saxta olduğunu, xristianlığın təməl prinsiplərini bir çox sahələrdə pozduğu kimi, son din olan İslam dininin izahlarına tamamilə müxalif bir inanca sahibdir. Yəhudi millətinə deyil, yəhudi dininə qarşı İslamın mövqeyi konkret olaraq mənfidir. Yer üzündə fəsad törədən şəxsləri mühafizə edən bir inancı dəstəkləyən digər bir inanc əlbəttə ki, rəbbani bir yol ola bilməz.

• Cənnətin başqa bir yerdə deyil dünyada olmasını deməlәri də bütün səmavi dinlərə ziddir. Cəhənnəmi isə dolayısı şəkildə inkar etmələri haqqında araşdırmamızın əvvəlində bəhs etmişdik. Bütün bunlar bu inancın nə qədər saxta təməllərə söykəndiyinin göstəricisidir.

• Ruh haqqında inancları da təməlində tövhid olan bütün dinlərə ziddir. Bu haqda da araşdırmanın əvvəlində məlumat verilmişdi.

• Digər xristianlardan müsbət mənada fərqlərinin yalnız xaça inanmamalarını və tək bir yaradıcıya inanmalarını, "tanrı, oğul, müqəddəs ruh" iddiasını inkar etmələrini vurğulamaq olar. Lakin onlar bu hər iki mövzuda da təhrif olunmuş xristianlıqdan təsirləndikləri məsələləri tam şəkildə tərk etmiş deyillər. Çünki, bu yolun özü daha çox təhrifə məruz qalmışdır.

• Qadın və kişilərin bir-birinə qarışması məsələsinə fikir verməmələri, təbliğat əsanasında cinsi fərq qoymamaları ilə də əsas məqsədin onların siyasi, ictimai və iqtisadi hədəflərinə çatmaq olduğu görünür. Halbuki rəbbani bir yol bu cür təhriflərə yol verə bilməz.

• Onlar digər xristianlar kimi iddia edirlər ki, Adəmlə Həvvanın

səhvi bütün bəşəriyyəti bəlaya saldı, Allah isə şeytanın ittihamının əsassız olduğunu isbat etmək üçün pislik və əzab-əziyyətlərə yol verdi[34]. Halbuki, dünyada şərlərin baş verməsinin tam izahı bu deyildir. İslam inancına görə yer üzündə şərlərin baş verməsinin bir çox hikmətləri vardır. İslam alimlərinin ittifaqı ilə şər Allaha nisbət edilmir. Allah şərlərin baş verməsinə bəzi hikmət və qayələrlə icazə verir. Bu cümlənin də xüsusi və ətraflı izahı var. Sektanın bu inancından şərlərin Allaha nisbət edilməsi göründüyü kimi, Allahın şərlərdən tənzih edilib (uzaq tutulub) uca tutulması da görünmür.

- Bu təşkilatın üzvlərinin təbliğatçıları müsəlman cəmiyyətlərində dinlərindən bixəbər olan müsəlmanlar ilə təbliğat xarakterli görüşlər keçirib söhbətlər edərkən müsəlmanları özlərinə inandırmaq üçün özləri ilə Qurani-Kərim də gətirib bu kitabdan özlərinə sərf edən sitatlar gətirməyə çalışır, qarşısındakıları müxtəlif hiylələrlə guya Quranın onların dediyini təsdiqlədiyini vurğulayır, sadəcə guya müsəlmanların bu mesajı anlamadıqlarını bildirirlər. Bu hiyləyə qarşı ayıq və diqqətli olmaq və dinimizi yaxşı öyrənməyə çalışmalıyıq! Belə görüşlərdən biri illər öncə mənim də başıma gəlmişdir, belə ki, sektanın təbliğatçısı öz dediklərini "isbat" etmək üçün əslində Quranın öz əleyhinə olmasından bixəbər olduğu halda söhbətdə istifadə etmək üçün özüylə Quran kitabını da gətirmişdi. Lakin dediyi iddiaların hamısı Qurani-Kərimin özü və İslamın təməl prinsiplərinə, digər dəlil və arqumentlərə əsasən rədd edilmişdi.

**Sonda:** bu mövzudan daha geniş danışmaq mümkün olsa da qısa bilgilər olaraq bu araşdırma ilə kifayətlənirik. Allahdan istəyirəm ki, bu araşdırmanı oxucular üçün faydalı etsin! Qeyd edim ki, Qurani-Kərimdə uca Allah bizə Kitab əhli ilə yalnız ən gözəl şəkildə mübahisə etməyin icazəli olduğunu bildirmişdir. (Ənkəbut. 46). Ona görə də elmlə, hikmətlə olmayan bu cür

---

[34] Bu inanc sektanın rəsmi saytlarında əsas inanclardan biri kimi qeyd olunmuşdur.

söhbətlərin (mübahisələrin) tərk olunması məsləhət görülür.

***Yazdı:*** *Beynəlxalq Mədinə İslam universitetinin doktorantura tələbəsi, Sahib Əsədov.            Mədinə şəhəri. 2024.05.10.*

## İstifadə edilmiş ədəbiyyat:

1 – "Muyəssəra" ensiklopediyası. 2 cildlik (ərəbcə). ər-Riyad. 2014.
2 – Azərbaycanda xristianlıq keçmişdən bu günə. Anar Əlizadə. "Elm və Təhsil". Bakı. 2016.
3 – Məqalə: Yehova şahidlərinin Azərbaycandakı aktiv saytlarından biri. (https://www.jw.org/az/).
4 – Məqalə: Yehovanın Şahidləri - kimlərdir və nə üçün qadağan edildi? https://hurriyyet.az/az/post/yehovanin-sahidleri---kimlerdir-ve-ne-ucun-qadagan-edildi-349457
5 - Məqalə: Azərbaycanda "Yehova şahidləri" necə təşkilatlanır? səkkizinci bənd: https://axar.az/news/gundem/36021.html
6 - Məqalə: Sumqayıtda Yehova Şahidləri təhlükəsi? – ARAŞDIRMA https://sumqayitxeber.com/sumqayitda-yehova-sahidleri-tehlukesi-arasdirma/
7 – Azərbaycanda dini məsələ: təhdidlər və hədəflər. Gündüz İsmayılov. (araşdırma kitab). Kitabın elektron mənbəsi: https://anyflip.com/ahquz/tkul/basic/201-250
8 – Məqalə: Türkiye Diyanet Vakfı -İslam Ansiklopedisi – Yehova şahitleri: https://islamansiklopedisi.org.tr/yehova-sahitleri (türkcə).
9 – Tövrat, İncil və Zəbur kitablarından sitatlar.
10 – Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi.